Onunla 5 il əvvəl Azərbaycan Dövlət Tibb Universitetinin idman korpusunda "Çinar" rəqs ansamblına aid guşədə görüşdük. Söhbətimiz maraqlı oldu və ondan Azərbaycan rəqs quruluşlarına aid xeyli məlumat əldə etdim. Respublikanın məşhur və yaşlı rəqs nümayəndələri, bu sırada tanınmış, bilici rəqqas, əməkdar artist, Dövlət Rəqs Ansamblının baletmeysteri Xanlar Bəşirov mənə mütləq Nisəxanımla görüşüb söhbət aparmağı məsləhət görmüş, demişdilər ki, bu nəzakətli, təvazökar, mədəni xanımın biliyi zəngin, intellekt səviyyəsi çox yüksəkdir. Bildirmişdilər ki, haqqı sevən, öz işini bacaran, sənətinə dərin sevgi bəsləyən bu xanım rəqs sənətinin əsl nümunəvi nümayəndələrindən biri olaraq bu sahədə öz dərin izini qoymuşdur.



# Milli rəqs sənətində örnək olan rəqqasə

## Nisəxanım Rəhimovanın həyat və yaradıcılığı



Nisəxanım həqiqətən Azərbaycan rəqs mühitində yaxşı tanınan və böyük nüfuza sahib çıxanlardandır. O, rəqs sənətini dərindən mənimsəyən, dərin bilik əldə edənlərdən və zəngin təcrübəsi əsasında sənətdə yüksək nailiyyətlərə çatanlardandır. Müsahibə aldığım zaman deyilənlərin doğru olduğu özünü təsdiq etdi. Sözü-söhbəti, danışığı, söylədiyi hər bir fikri səmimiyyətə söykənən bu nəcib xanımdan aldığım müsahibə zamanı əməkdar artist Xanlar Bəşirovla o zaman üzərində işlədiyimiz "Milli rəqs sənəti" adlı elmi, sənədli kitab üçün tutarlı faktlar və dəyərli məlumat aldım.

Nisəxanım Cəfər qızı Rəhimova 1951-ci il sentyabr ayının 27-də Bakıda doğulub. 1957-ci ildə 134 saylı ümumtəhsil məktəbə daxil olub və 2 il burada təhsil alıb. Sonra təhsilini 8-ci km qəsəbəsindəki 32 saylı məktəbdə davam etdirib. Nisəxanım 1961-1969-cu illərdə Bakı Xoreoqrafiya Məktəbinin klassik rəqs şöbəsində təhsil alıb.

Nisəxanımın fikirlərindən: "Yaxın, uzaq qohumlar narazı olsalar da, atam Cəfər Mirzəağa oğlu Rəhimov (1912-1984), anam Qalina Vasilyevna (1920-2002) rəqs sənə'tini çox sevdikləri üçün mənim bu ixtisas üzrə təhsil almağımı istədilər. Aildə iki qardaş, iki bacı böyümüşük. Rəqs sənətinə yalnız mən gəlmişəm".

Bu sənət məbədində o, ixtisas üzrə I sinifdən Çernyakova Mariya İvanovna, ikincidən Roza Əliyeva və V sinifdən sona qədər SSRİ xalq artisti Leyla Vəkilovadan yüksək səviyyədə dərs alıb. Təhsil illərində o, keçilən proqramı, tədrisə aid bütün materialı həmişə layiqincə yerinə yetirib, imtahanlardan yaxşı qiymətlər alaraq, nümunəvi tələbə olaraq tanınıb və pedaqoji kollektivin sevimlisinə çevrilib. İxtisas müəllimləri həmişə onun sənət gələcəyinə böyük ümidlər bəsləyiblər.

Hamı elə bilirdi ki, o, Opera və Balet Teatrına gedəcək və balet yerində olan, özünü doğruldan sənət adamı idi. Sənəti, qabliyyəti, işinə ciddi münasibəti, səmimiyyəti, sadəliyi, mehribanlığı, yoldaşlara qaynayıb-qarışmağı ilə özünü doğruldaraq sevdirmişdi. Onun ifasında Azərbaycan qadın rəqslərinə məxsus incə yeriş, süzmək, şux baxış, nəcib duyğular, nəzakətli hisslər, zəriflik, məlahət, cazibə, plastika, axıcı hərəkətlər düzümü, daxili qüvvənin enerjisi və bütün xüsusiyyətlər cəmləşərək təzahür edirdi. Ansambla daxil olduğu ilk anlardan tələb olunan belə şərtləri məharətlə yerinə yetir-





ifaçısı kimi məşhurlaşacaq. Lakin bu baş vermədi. N.Rəhimova əməkdar kollektiv Dövlət Mahnı və Rəqs Ansamblında işləməyi üstün tutdu. 1969-cu ildə Azərbaycan Dövlət Filarmoniyasında əmək fəaliyyətinə başlayan gənc rəqqasə 5 ayda öz bacarığını göstərərək hamının və rəqs qrupunun rəhbəri, məşhur sənət adamı Xumar Zülfüqarovanın (1927-2017) diqqətini cəlb etmişdi.

N.Rəhimova Mahnı və Rəqs Ansamblında rəqqasə kimi tam öz məsi gənc Nisəxanımın kollektivdə öz yerini tutması, yaxşı tanınması, sevilərək dərin rəğbət qazanması üçün imkan yaratmışdı. Təbii ki, onun klassik rəqs təhsili almasının da mühüm rolu olmuşdu. O, rəqs sənətinin bütün incəliklərini öyrənərək ansambla gəlmişdi. Burada artıq ona verilən tapşırıqları, rəqs quruluşlarındakı tələbatı, qaydaları və milli rəqsin xüsusiyyətlərini yerinə yetirirdi.

Qeyd etdiyimiz kimi, Nisəxanım məktəbi bitirdiyi ildən Mahnı və Rəqs ansamblında səmərəli, nailiyyətli fəaliyyət göstərərək, milli rəqsin ən uğurlu nümayəndələrindən biri kimi xidmət göstərib və buradan 1991-ci ildə pensiyaya çıxıb. Çalışdığı müddətdə duet, kütləvi və tək ifa olunan rəqslərdə solist olaraq özünü doğruldub, tamaşaçı sevgisi qazanıb və yaddaşlarda qalıb. "Azərbaycan suitası", "Bulaq başında", "Nazlana-nazlana", "Tərəkəmə", "Ceyran", "Vağzalı-Mirzəyi", "Lalələr", "Nazələmə" və digər rəqs quruluşlarında yüksək ifaçılıq bacarığı, böyük istedadı ilə seçilib. Öz sənətinə dərin sevgi, həssaslıq, ciddi və məsuliyyətlə yanaşması onu layiqli mütəxəssis kimi yetişdirib. Nisəxanım istedadını, yüksək göstəricilərini nəzərə alan görkəmli baletmeyster Əlibaba Abdullayev 1970-ci ildə onunla Səid Rüstəmovun lirik musiqisi ("Getmə-getmə, gəl" adlı mahnı) üzərində "Qavalla rəqs" qurub. Ustad xoreoqrafın, gənc rəqqasənin böyük əzmi, həvəsi, gərgin zəhməti sayəsində əsl səhnə əsəri meydana çıxmışdı. N.Rəhimova bütün fəaliyyəti ərzində "Qavalla rəqs"lə səhnələri rövnəqləndirmişdir.

N.Rəhimova 1970-1972-ci ildə SSRİ xalq artisti R.Behbudovun rəhbərlik etdiyi Dövlət Mahnı Teatrının solisti olub. O zaman burada iki rəqqas və on bir rəqqasə çalışırdı. Nisəxanım SSRİ-nin, dünya ölkələrinin səhnələrində kütləvi, duet və solo rəqslərdə məharətli ifası ilə daim diqqəti cəlb etmiş, rəğbət və alqışlar qazanmışdır. Onun dəqiq səhnə hərəkətləri, plastikası, tərəf-müqabil ilə ünsiyyəti, hər bir rəqsin traktovkasını, süjet xəttini və məzmunu düz anlayaraq yerinə yetirməsi daim uğurlu alınırdı. Baletmeyster onunla çalışmaqdan məmnun olur, tərəf-müqabil birlikdə çıxış etməkdən çox razı qalırdı. Nisəxanım həssas, duyğulu rəqqasə olaraq plastik, elastik hərəkətləri ona verilən hər bir soloya uyğun olaraq daim ecazkar və nəfis şəkildə yerinə yetirmişdir. O, hər bir reqsə öz incə duyumu, hissiyyatı və öz yaradıcılıq prizmasından yanaşaraq yaratmışdır. Hər bir rəqsin obrazını doğru yarada bilən rəqqasə öz işini sərbəst olaraq yerinə yetirdiyi üçün səhnədə inam yaradaraq tamaşaçıları ram edirdi.

Rəşid Behbudovun oxuduğu "Yabançı olduq şimdi" türk mahnısında Nisaxanımın rəqsi böyük marağa səbəb olaraq ona tamaşaçı hörməti və məhəbbəti qazandırırdı. Dünya səhnələrində nəyə tələb olunduğunu çox yaxşı bilən ustad müğənni, böyük sənət nümayəndesi R.Behbudov öz teatrına nadir baletmeyster və rəqs nümayəndələrini cəlb etmişdi. O, Nisəxanımın sənətinə yüksək dəyər verirdi. N.Rəhimova SSRİ-də və dünya ölkələrinin səhnələrində həmişə unikal sənət sərgiləyib. O, "Qaytağı"da, "Cücələrim" rəqslərində və Ü.Hacıbəylinin "Arşın mal alan" operettasının musiqisi əsasında hazırlanan kompozisiyada böyük məharət göstərirdi. O, "Qaytağı"da əlində nağara səhnəyə çıxaraq dərhal nəzər-diqəti cəlb edir, diz üstə fırlanaraq rəqsin təsir qüvvəsini, dinamikanı gücləndirir, məzmunu zənginləşdirir və verilmiş quruluşun mahiyyətini açıb göstərirdi. Onun oynadığı hər bir rəqs obraza bürünərək əsər halına cevrilirdi. Həmin vaxtlar Dövlət Mahnı Teatrında quruluşçu baletmeysterlər-xalq artistləri, böyük rəqs sənətçiləri Rəfiqə Axundova və Maqsud Məmmədov, məşqçi Maritsa Alekseyevna Syomina idi.

*(Ardı var)*

**Əhsən RƏHMANLI**
**Tədqiqatçı, sənətşünaslıq üzrə fəlsəfə doktoru**